AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

QAZAX VƏ BAŞQIRD ƏNƏNƏVİ İNSTRUMENTAL KÜYLƏR: ÜMUMİ XÜSUSİYYƏTLƏR

İxtisas: 6213.01 – "Musiqi sənəti"

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Nurbanu Kadirbayevna Joldasova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2026

Dissertasiya işi Azərbaycan Milli Konservatoriyasının "Etnomusiqişünaslıq" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
Lalə Şirməmməd qızı Hüseynova

Rəsmi opponentlər: sənətşünaslıq doktoru, professor
Saule İsxakovna Uteqaliyeva

sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
Zümrüd Araz qızı Axundova-Dadaşzadə

sənətşünaslıq üzrə fəlsəfə doktoru
Kamalə Ələşrəf qızı Bəşirova

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Konservatoriyasının nəzdində fəaliyyət göstərən FD 2.55 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: sənətşünaslıq doktoru, professor
Kamilə Hüseyn qızı Dadaş-zadə

Dissertasiya şurasının elmi katibi: sənətşünaslıq üzrə fəlsəfə doktoru
Fərdin İlham oğlu Məhəmmədzadə

Elmi seminarın sədri: sənətşünaslıq doktoru, professor
Ülkər Sabir qızı Əliyeva

DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Müasir dövrümüzə qədər etnomusiqişünaslıqda qazax və başqırd musiqili-poetik, epik və instrumental yaradıcılığının oxşarlığı məsələsi nə tipoloji, nə də genetik baxımdan əsaslı şəkildə tədqiq olunmamışdur. Bununla belə, qazax və başqırd musiqi mədəniyyətlərinin bəzi ümumi cəhətlərinin konturlarının qeyd edildiyi tədqiqatlar mövcuddur.[1,2,3,4] Türk xalqlarının ənənəvi musiqinin xüsusi problemlərinə həsr olunmuş digər bir qrup araşdırmada isə, o cümlədən qazax və başqırdların musiqi mədəniyyətindəki bəzi oxşar elementlər işıqlandırılmışdır.[5,6,7,8,9]

---

[1] Камаев, Ф.Х. Стилевые и жанровые особенности башкирского музыкального фольклора // Научно-методические записки. УГИИ. Вып. 1. – Уфа: Башкирское книжное издательство, – 1973. – 144 с. – с. 14-30. – с. 14, 29.

[2] Сулейманов, Р.С. Жемчужины народного творчества Урала / Р.С.Сулейманов. – Уфа: Китап, –1995. – 248 с. – с. 155-161.

[3] Жузбасов, К.Т. Традиционная музыка // Казахи. Историко-этнографическое исследование. Ред. коллегия: М.К. Козыбаев, Х.А. Аргынбаев, М.С. Муканов. – Алматы: Казахстан, –1995. – 352 с. – с. 177-196.

[4] Бердыбай, А.Р. Об общности некоторых принципов структурирования в казахских и башкирских песнях (к постановке вопроса) // Материалы международной научно-практической конференции «Актуальные проблемы музыкальной науки и музыкального образования», – Алматы: КНК им. Курмангазы, – 2005, – с. 334-341.

[5] Ихтисамов, Х.С. К проблеме сравнительного изучения двухголосного гортанного пения и инструментальной музыки у тюркских и монгольских народов // Народные музыкальные инструменты и инструментальная музыка. Сб. статей и материалов в 2-х частях. Ч. 2. Под общ. ред. Е.В. Гиппиуса. Ред.-сост. И.В. Мациевский. – Москва: Сов. композитор, – 1988. – 328 с. – с. 197-216.

[6] Халтаева, Л.А. Генезис и эволюция бурдонного многоголосия в контексте космогонических представлений тюрко-монгольских народов / Л.А.Халтаева. – Улан-Удэ: Республиканская типография, – 2015, – 176 с., ил.

[7] Утегалиева, С.И. Звуковой мир музыки тюркских народов: теория, история, практика (на материале инструментальных традиций Центральной Азии) / С.И.Утегалиева. – Москва: Композитор, – 2013. – 528 с., нот., схемы, илл.

[8] Бекенов, У. Сыбызғы күйлері // Бекенов У. Күй керуені. – Алматы: Өнер, – 2002. – 144 б. – 88-142 б.

Türk xalqlarının musiqi mədəniyyətinin müəyyən əlamətlər üzrə oxşarlığının öyrənilməsi etnomusiqişünaslığın aktual istiqamətlərindən biridir. Bu məsələləri bir sıra alimlər elmi tədqiqatlarında vurğulamışlar.[10,11,12,13,14] Bununla əlaqədar təqdim olunan dissertasiya qazax və başqırdların ənənəvi instrumental musiqisində özünü göstərən müştərəklik məsələsinə, konkret olaraq oxşar nəfəs alətləri – uzun açıq fleytalar qrupuna aid olan qazax sıbızğısı və başqırd quray aləti üçün küylərin müqayisəli təhlilinə həsr edilmişdir. Qeyd etmək lazımdır ki, dissertasiya mövzusu etnomusiqişünaslıq elmində, o cümlədən musiqi türkologiyasında araşdırılmamışdır. Məhz buna görə də bu mövzunun iddiaçı tərəfindən tədqiqata cəlb olunması öz aktuallığı və yetərincə öyrənilməməsi ilə şərtlənib.

Tədqiqatın obyekti və predmeti. Tədqiqatın obyekti qismində hər iki xalqın musiqi irsində geniş yer tutan instrumental küylərin yalnız bir hissəsi, yəni qazaxların sıbızğı, başqırdların isə quray aləti üçün küyləri seçilmişdir. Belə bir seçim üç meyar əsasında aparılmışdır. Birinci meyar hər iki musiqi alətinin oxşarlığıdır (tipoloji və ehtimal ki, genetik). İkinci meyar regional əlamətlərlə bağlıdır. Üçüncü meyar isə küylərin janr xüsusiyyətləridir. Beləliklə,

---

[9] Тансу, Ф. Классификация и распространение тюркской музыки // Ф.Тансу. Новый взгляд на музыку тюркских народов Евразии. – Стамбул, – 2008. – 130 с. – с. 11-13.

[10] Гуллыев, Ш. Некоторые вопросы общетюркского музыкального языка // Материалы международной научно-практической конференции «Язык традиционной музыки и современное культурное пространство»,– Алматы: Ел, – 2008, – с. 42-46 – с. 42.

[11] Каракулов, Б.И. О перспективах развития музыкальной тюркологии в Казахстане // Сборник тезисов I международного симпозиума «Музыка тюркских народов», – Алматы: АГК им. Курмангазы, – 1994, – с. 162-163. – с. 162

[12] Hüseynova L.Ş. Türk xalqlarının musiqisi // L.Ş.Hüseynova – Bakı: AFPoliqrAF, – 2023. – 180s.

[13] Карокатли, Ф.М. Музыкальное наследие тюркских народов в наши дни // Сборник тезисов I международного симпозиума «Музыка тюркских народов», – Алматы: АГК им. Курмангазы, – 1994, – с. 161.

[14] Утегалиева, С.И. Исследования А.В. Затаевича и проблемы музыкальной тюркологии // Материалы всесоюзной научно-практической конференции «А.В. Затаевич и проблемы современного этномузыкознания». – Алма-Ата: АГК им. Курмангазы, – 1991, – с. 50-53.

etnomusiqişünaslıq tədqiqatının obyektini aşağıdakı küylər təşkil edir:

1. Qazaxıstan Respublikasının Şərqi Qazaxıstan vilayətinin (Zaysan, Katon-Karağay, Kürşüm rayonları[15]-bundan sonra ŞQ) və Monqolustanın Bayan-Ölqii bölgəsinin (bundan sonra – B-ÖB) sıbızğı üçün olan ənənəvi küyləri. Bunlar müəllifliyi anonim xarakter daşıyan (etnoforların öz tərifinə görə – "халық күйлері") "xalq küyləri"dir. Apardığımız təhlillərin nəticələrinə əsasən, bu küylər iki janr vasitəsilə – 1) "añız küy" ("küy-əfsanə") [mənbələrdəki termin[16,17,18]:] və 2) "arnau küy" ("küy-ithaf") [mənbədəki termin[19]][20] ifadə olunur:

2. Başqırdıstan Respublikasının şərq (Abzelil (və ya Əbyəlil), Beloretsk, Burzyan), cənub-şərq (Baymak) və cənub (Xaybullin, Zilair) rayonlarının quray üçün olan folklor ənənəli küylərindən söz açılır.

Əvvəlki tədqiqatlara söykənərək və apardığımız araşdırmanın nəticələrinə əsasən müəyyən edilmişdir ki, onlar 1) "*легенда көйө*"[21], yəni "küy-əfsanə"[22], 2) "küy-ithaf", 3) *"ҡыланып*

---

[15] Бекхожина, Т. Даламның назды саздары / Т.Бекхожина. – Алматы: Өнер, – 1996. – 208 б. – с. 26-31.

[16] Бекхожина, Т. Даламның назды саздары / Т.Бекхожина. – Алматы: Өнер, – 1996. – 208 б. – с. 26-31.

[17] Бекхожина, Т. Кюи-легенды // Народная музыка в Казахстане. – Алма-Ата: Казахстан, 1962. – 267 с. – с. 130-138. – с. 130.

[18] Раимбергенова, С.Ш. Древняя инструментальная музыка казахов (на материале домбровых кюев): / Автореферат дис. кандидата искусствоведения. / – Ташкент: – 1993. – 22 с.

[19] Қазтұғанова, А.Ж. Қазақтың арнау күйлері (жанр және стиль мәселелері) / А.Ж.Казтуганова. – Алматы: – 2008. – 248 б.

[20] Bu janrların adları ənənəvi Qazax instrumental musiqisində mövcuddur ("küy-əfsanə" janrı "anız küy", "küy-ithaf" janrı isə "arnau küy" adlanır). "Anız" sözü Qazax şifahi sənətinin bir janrını – "əfsanə"ni ifadə edir, "arnau" sözü isə "ithaf" və "həsr etmək" feilini bildirir. Sıbızğı üçün "küy-əfsanə" janrı (anız küy) ənənəvi Qazax instrumental musiqisində mövcud olmuş və bu günə qədər miras kimi qalmışdır. Etnomusiqişünaslıq bu anlayışları ənənəvi Qazax instrumental musiqisindən əxz etmiş və terminologiya kimi istifadə edir.

[21] Сөләймәнов, Р.С. Башҡорт халыҡ музыка сәнғәте. I том. Эпик йырҙар һәм көйҙәр / Р.Сөләймәнов. – Өфө: Китап, – 2001. – 240 б. – 208, 239 б.

беўеу”(“kılanıp beyeu”) küyləri – *“proqramlı-təsviri rəqs”* [23] adı ilə üç janra ayrılır.

Etnomusiqişünaslıq araşdırmasının predmetini *sıbızğı* və *quray* üçün olan bu küylərin musiqi quruluşundakı, adlarındakı və şifahi rəvayət komponentinin məzmunundakı oxşar əlamətlər təşkil edir.

Tədqiqatın məqsəd və vəzifələri. Tədqiqatın məqsədi təhlillər vasitəsilə sıbızğı üçün qazax küylərinin və quray üçün başqırd küylərinin musiqi quruluşunda, adlarında və rəvayət komponentinin məzmununda oxşar əlamətləri aşkar etmək və müəyyənləşdirməkdən ibarətdir. Tədqiqatın məqsədinə çatmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi vacib idi:

1. Tədqiqat mövzusunun işıqlandırılmasına xidmət edən etnomusiqişünaslıq və musiqişünaslıq işlərinin öyrənilməsi;

2. Tədqiqatın musiqi və musiqi-etnoqrafik materialının müəyyənləşdirilməsi və onun öyrənilmə rakursunun seçilməsi məqsədilə ilkin olaraq 2002-ci ildə Rusiya Federasiyasının Başqırdıstan Respublikası və Qazaxıstan Respublikası əraziləri ilə həmsərhəd olan Orenburq vilayətinin qazax və başqırd əhalisinin yaşadığı Saraktaş, Quvandık, Quarkin və Adamovka rayonlarının kəndlərinə ekspedisiyaların təşkili;

3. Sıbızğı üçün qazax küylərinin və quray üçün başqırd küylərinin not məcmuələrinin, səs yazılarının, qazax və başqırd ənənəvi mahnı və epik janrlar toplularının öyrənilməsi;

4. ŞQ-da və B-ÖB-də sıbızğı üçün küylərin şifahi rəvayət komponentinin – əfsanə və hekayətlərin – onların obraz məzmunu və bu obrazlarla baglı simvolizm prizmasından təhlili, əfsanə və hekayətlərin musiqi ilə əlaqəsinin tədqiqi, bundan irəli gələrək sıbızğı üçün küylərin janr xüsusiyyətlərinin müəyyən edilməsi;

5. Hazırda ŞQ-da və B-ÖB-də sıbızğı küylərinin musiqi quruluşu hələ də az öyrənilmişdir. Buna görə də qeyd olunan küylərin təhlilinin məhz onların musiqi üslubu, musiqi formasının

---

[22] Зелинский, Р.Ф. Композиционные закономерности башкирских программных инструментальных кюев: / Автореферат дис. кандидата искусствоведения. / – Ленинград: ЛГИТМиК, – 1977. – 21 с.

[23] Лебединский, Л.Н. Башкирские народные песни и наигрыши. 2 изд. / Л.Лебединский. – Москва: Музыка, – 1965. – 246 с., нот.

həm proses kimi, həm də kristallaşmış şəkli, habelə küy melodiyalarının məqam və intonasiya quruluşu aspektləri əsasında aparılması;

6. Quray küylərinin şifahi rəvayət komponentinin – əfsanə və hekayələrinin – onların obrazlı məzmunu və bu obrazlarla bağlı simvolika prizmasından təhlil edilməsi; onların əfsanə və rəvayətlərinin musiqi ilə qarşılıqlı əlaqəsinin, koordinasiyasının təhlilinin aparılması. Bu küylərin janr xüsusiyyətlərinin aşkar edilməsi və müəyyənləşdirilməsi;

7. Quray küylərinin musiqi quruluş tipi (üslubu), musiqi formasının əmələgəlmə prinsiplərini və bitkin tam kimi, habelə melodiyalarının məqam və intonasiya quruluşu aspektlərində öyrənilməsi;

8. Oxşarlıq əlamətlərini aşkar etmək məqsədilə sıbızğı və quray küylərinin təhlil nəticələrinin qarşılaşdırılması və müqayisə edilməsi.

Tədqiqat metodları. Sıbızğı və quray üçün küylərin musiqi quruluşundakı ümumi cəhətlər etnomusiqişünaslığın *"musiqi sivilizasiyalarının xüsusiyyətlərini öyrənməyə imkan verən əsas parametrlər"*[24] müddəası işığında tədqiq edilmişdir. *"Birinci dərəcəli"* parametrlərə *"...həmin sivilizasiyada ən çox inkişaf etmiş musiqi sənəti növlərinin (şifahi, yazılı, folklor, peşəkar) tipologiyası, onların janr sistemləri və çalğı alətləri"* daxildir. *"İkinci dərəcəli"* parametrlərə isə *"...musiqi-poetik dilin bütün əsas sistemləri: məqam sistemi, ritm sistemi, kompozisiya formaları, süjet quruluşu"*[25] aiddir.

Tədqiqat prosesində sistemli, müqayisəli-tarixi, analogiya, tipologiya və antropoloji metoda[26], həmçinin sistem-etnofonik metodun elementlərinə istinad olunmuşdur. I fəsildə küylərin şifahi

[24] Кондратьев, М.Г. К понятию Волго-Уральской музыкальной цивилизации // Материалы всероссийской научной конференции «Теоретические концепции XX века. Итоги и перспективы отечественной музыкальной науки», – Новосибирск: НГК (академия) им. М.И. Глинки, – 2000, – с. 320-329. – с. 324

[25] Кондратьев, М.Г. Тот же источник. – с. 325.

[26] Мациевский, И.В. Формирование системно-этнофонического метода в органологии // Методы изучения фольклора. Сб. научных трудов. – Ленинград: ЛГИТМиК, – 1983. – 154 с. – с. 54-63.

rəvayət komponentinin təhlili və onun musiqi materialı ilə qarşılıqlı əlaqəsinin müəyyənləşdirilməsi zamanı qazaxların dombıra, qıl-qopuz, sıbızğı[27,28,29,30,31,32,33] üçün küy janrlarının və başqırdların quray[34,35,36,37] üçün küy janrlarının tədqiqi sahəsindəki elmi nəticələrə əsaslanılmışdır. II və III fəsillərdə monodiya[38,39] nəzəriyyəsinin müddəaları əsasında sıbızğı və quray küylərinin musiqi üslubu və musiqi forması təhlil edilmiş, onların melodiyalarının məqam və intonasiya təhlili aparılmışdır. Bu zaman:

---

[27] Бекхожина, Т. Даламның назды саздары / Т.Бекхожина. – Алматы: Өнер, – 1996. – 208 б.

[28] Бекхожина, Т. Кюи-легенды // Народная музыка в Казахстане. – Алма-Ата: Казахстан, 1962. – 267 с. – с. 130-138. – с. 130

[29] Гизатов, Б.Г. Социально-эстетические основы казахской народной инструментальной музыки / Б.Г.Гизатов – Алма-Ата: Наука, – 1989. – 136 с.

[30] Ерзакович, Б.Г. Музыкальное воплощение эпических сказаний и легенд // Ерзакович, Б.Г. Песенная культура казахского народа. Музыкально-историческое исследование. – Алма-Ата: Наука, – 1966. – 402 с. – с. 155-229.

[31] Жубанов, А.К. Струны столетий / А.К.Жубанов – Алматы: Дайк-Пресс, –2001. – 280 с.

[32] Қазтұғанова, А.Ж. Қазақтың арнау күйлері (жанр және стиль мәселелері) / А.Ж.Казтуганова. – Алматы: – 2008. – 248 б.

[33] Мухамбетова, А.И. Генезис и эволюция казахского кюя (типы программности) // Аманов Б.Ж., Мухамбетова А.И. Казахская традиционная музыка и XX в. – Алматы: Дайк-Пресс, – 2002. – 544 с. – с. 119-152. – с. 120, 138.

[34] Ихтисамов, Х.С. Системная классификация жанров и стилей традиционного башкирского музыкального фольклора // Тезисы межреспубликанской научно-теоретической конференции «Традиции и новаторство в музыке», – Алма-Ата: – 1980, – с. 110-113.

[35] Зелинский, Р.Ф. Композиционные закономерности башкирских программных инструментальных кюев: / Автореферат дис. кандидата искусствоведения. / Р.Ф.Зелинский – Ленинград: ЛГИТМиК, 1977. – 21 с.

[36] Лебединский, Л.Н. Башкирские народные песни и наигрыши. 2 изд. / Л.Н.Лебединский – Москва: Музыка, – 1965. – 246 с., нот.

[37] Сөләймәнов. Р.С. Башҡорт халыҡ музыка сәнғәте. I том. Эпик йырҙар һәм көйҙәр. / Р.С.Сөләймәнов – Өфө: Китап, – 2001. – 240 б. – 220, 231 б.

[38] Галицкая, С.П. Монодия: проблемы теории. / С.П.Галицкая, А.Ю.Плахова. – Москва: Academia, – 2013. – 320 с.

[39] Ульмасов, Ф.А. Многомерность восточной монодии в контексте сольного вокально-инструментального музицирования: на материале таджикской и узбекской традиционной музыки: / Дис. доктора искусствоведения. / Ф.А.Ульмасов. – Новосибирск: НГК (академия) им. М.И. Глинки, 2017. – 341 с.

1) musiqi türkologiyası və "*etnomusiqişünaslıq komparativistikası" ("müqayisəli etnomusiqişünaslıq")* sahəsində[40], 2) qazax və başqırdların mahnı və epik janrları sahəsində hazırda mövcud olan tədqiqatların nəticələri nəzərə alınmışdır.

Müdafiəyə çıxarılan əsas müddəalar. Sıbızğı və quray üçün olan küylərin oxşarlığı aşağıdakılardir:

1. Küylərin şifahi rəvayət komponenti oxşar janrlarda – əfsanə və hekayətlərdə öz təcəssümünü tapır. Şifahi rəvayət komponentinin məzmununa görə sıbızğı üçün *"küy-əfsanə" janrı (qazaxca – "añız küy")* quray üçün *"küy-əfsanə"* janrı *(başqırdca – "leqenda köyö")* ilə oxşarlıq təşkil edir. Obrazlı məzmununa görə quray üçün "*kılanıp beyeu*" *("proqramlı-təsviri rəqs")* küyü sıbızğı və quray üçün *"küy-əfsanə"* janrı ilə oxşardır. Sıbızğı üçün *"küy-ithaf" janrı (qazaxca – "arnau küy")* quray üçün *"küy-ithaf"* janrı ilə oxşardır.

2. Sıbızğı və qurayda əsas səsçıxartma və çalğı üsulu qırtlaq səsi – burdonun əlavə edilməsi ilə baş tutan ifadır. O, tipoloji və ehtimal ki, genetik cəhətdən oxşardır. Bunun nəticəsində hər iki instrumental ənənə üçün ümumi olan musiqi quruluşu tipi – *"çoxlaylı monodik quruluş"* və onun bir növü olan *"burdonlu quruluş"* (S.P.Qalitskaya və A.Y.Plaxovanın terminləri[41]) formalaşır. *"Burdonlu quruluş"* sıbızğı və quray küylərində əsas musiqi quruluşudur. Bu quruluş daxilində quray küylərində instrumental melodiyanın şaquli istiqamətdə kvarta, kvinta və seksta intervalları ilə iki alt qata parçalanması kimi bir fenomen ortaya çıxır. Bu fenomenin əsas xüsusiyyəti ondan ibarətdir ki, bu və ya digər səsi çıxartdıqda həmin səsin yanında epizodik olaraq onun obertonlarından biri səslənir. Nəticədə, *"çoxlaylı monodik quruluşun""burdonlu"* növü daxilində digər bir *"çoxlaylı monodik*

[40] Кондратьев, М.Г. Музыка финно-угорских народов и региональная этномузыковедческая компаративистика // Материалы международной научной конференции «Финно-угорская музыкальная культура и современный мир», – Казань: КГК (академия) им. Н.Г. Жиганова, – 7-9 ноября 2012, – 2013, – с. 96-105.
[41] Галицкая, С.П. Монодия: проблемы теории / С.П.Галицкая, А.Ю.Плахова. – Москва: Academia, – 2013. – 320 с. – с. 213, 220-222.

quruluşun" – "koloristik qalınlaşma"[42] quruluşunun əlaməti təzahür edir

3. Sıbızğı və quray küylərində musiqi formasının əmələ gəlməsi sintaktik vahidlər olan "melodik formulların"[43] və quruluşların toplanması, *"melodik formulların kombinatorikası"* kimi oxşar metod vasitəsilə həyata keçirilir. Bunun nəticəsində sıbızğı və quray küylərində musiqi formasının ümumi "kanonik modeli" – variantlı forma yaranır.

4. Bu janrlardakı sıbızğı və quray küylərində məqam "modal", "monodik" tipə aid edilir. Məqamın formalaşması *"məqam həlqələrinin"*[44] toplanması kimi oxşar metodla həyata keçirilir. "*Məqam həlqələri*" onlara uyğun gələn *"melodik formullar"* ilə "diffuz" (qovuşuq) xarakter daşıyır. Sıbızğı və quray küylərinin məqam quruluşunda burdon səsi oxşar funksiyanı yerinə yetirərək onun əsas dayaq səsini gücləndirir.

5. ŞQ və B-ÖB-nin *"g səs sıralı"* pentatonikadakı sıbızğı küyləri, *"g səs sıralı"*[45] pentatonikadakı kuray küyləri ilə oxşardır. ŞQ-nin avtentik tipli heksatonikadakı sıbızğı küyləri, avtentik tipli heksatonikadakı quray küyləri ilə yaxınlıq təşkil edir. Yarımtonsuz məqamın iki növü: birincisi –*"g səs sıralı"* pentatonika, ikincisi – avtentik növlü heksatonika (sıbızğı küyləri arasında bu növə ŞQ-da rast gəlinir) sıbızğı və quray küylərində oxşardır.

6. Major yönümlü yarımtonlu məqamlarda, sıbızğı və quray küyləri bir və iki subtonlu plaqal növə əsaslanır.

7. Yarımtonsuz və yarımtonlu məqamlarda sıbızğı və quray küylərində interval strukturlarına və interval diapazonlarına görə

---

[42] Галицкая, С.П. Монодия: проблемы теории / С.П.Галицкая, А.Ю.Плахова. – Москва: Academia, – 2013. – 320 с.– с. 220.

[43] Лебедев, С.Н. Мелодическая формула. Большая российская энциклопедия https://bigenc.ru > musik > tekst

[44] Галицкая, С.П. Монодия: проблемы теории / С.П.Галицкая, А.Ю.Плахова. – Москва: Academia, – 2013. – 320 с. – с. 91.

[45] Кондратьев, М.Г. Основные свойства чувашской пентатоники // Материалы межреспубликанской научной конференции «Пентатоника в контексте мировой музыкальной культуры», – Казань: Казанская консерватория, – 1-2 ноября 1993, – 1995, – с. 86-91. – с. 87.

oxşar olan beş angemiton (yarımtonsuz) *melodik formul / "məqam həlqələri"* mövcuddur.

Tədqiqatın elmi yeniliyi. Bu dissertasiya tədqiqatının elmi yeniliyi, qazax və başqırdların instrumental yaradıcılığının və instrumental musiqisinin oxşarlıq məsələlərinin az öyrənilməsi ilə şərtlənir. Digər tərəfdən, işdə qarşılaşdırmalı müqayisə rakursundan bir sıra elə məsələlər tədqiq edilmişdir ki, onlar daha öncə etnomusiqişünaslığın diqqət mərkəzində olmamışdır. Bunlar – sıbızğı və quray küylərinin musiqi ilə koordinasiyada şifahi rəvayət komponenti, ifadə quruluşu, musiqi forması və məqam səviyyəsindəki oxşarlığı və fərqləridir.

I fəsildə ilk dəfə olaraq qarşılaşdırmalı müqayisə müstəvisində sıbızğı və quray küylərinin şifahi rəvayət komponentinin janrları öyrənilmiş və küylərin rəvayət komponenti – *a) əfsanə və b) şifahi xalq hekayəsi (qazaxca – "əñgime")* janrları ilə təmsil olunur. Müəyyən edilmişdir ki, bu küylər obrazlı məzmununa və öz formalarında iki komponentin – şifahi rəvayət və musiqinin qarşılıqlı əlaqəsi/ koordinasiyası əlamətinə görə oxşardır. Bunun nəticəsində bütövün iki forması-birinci, *"əfsanədə küy" və "küy-əfsanə"* əlamətlərini özündə birləşdirən *"qarışıq musiqi fəaliyyəti forması*"; ikinci isə *"küy və əfsanə" tipli "ayrı musiqi fəaliyyəti formaları"* aşkar edilmişdir (A.İ.Muxambetovanın terminləri[46]). Onlar sıbızğı və quray küylərində tipoloji və ehtimal ki, genetik baxımdan yaxındır. Bu əsasda müəyyən edilmişdir ki, sıbızğı və quray üçün olan bu küylər janr etibarilə oxşardır. Birinci qrup janr baxımından küy-əfsanələrdir, onların rəvayət komponenti, bir qayda olaraq, əfsanə janrında öz əksini tapır. İkinci qrup isə janr baxımından küy-ithafdır, onların rəvayət komponenti ən çox şifahi xalq hekayəsi – *"əñgime"*[47]*("hekayə")* janrında ifadə olunur.

[46] Мухамбетова, А.И. Генезис и эволюция казахского кюя (типы программности) // Аманов Б.Ж., Мухамбетова А.И. Казахская традиционная музыка и XX в. – Алматы: Дайк-Пресс, – 2002. – 544 с. – с. 119-152. – с. 121, 127, 129-130.

[47] Мухамбетова, А.И. Генезис и эволюция казахского кюя (типы программности) // Аманов Б.Ж., Мухамбетова А.И. Казахская традиционная музыка и XX в. – Алматы: Дайк-Пресс, – 2002. 544 с. – с. 119-152. – с. 140.

Qeyd edilmişdir ki, bu küylərin ifası zamanı sıbızğı və qurayda oxşar səsçıxartma üsulu tətbiq olunur və oxşar musiqi quruluşu formalaşır. Mövcud tədqiqatlar nəzərə alınmaqla[48,49,50,51,52,53,54] və monodiya[55,56,57] nəzəriyyəsinin metodoloji müddəaları əsasında, bu küylərdə musiqi quruluşu ilk dəfə olaraq qarşılaşdırmalı-müqayisəli planda öyrənilmişdir.

II fəsildə ilk dəfə olaraq: 1) ŞQ və B-ÖB sıbızğı küylərində musiqi formasının qurulma üsulu və bunun nəticəsində formalaşan

---

[48] Ихтисамов Х.С. Заметки о двухголосном гортанном пении тюркских и монгольских народов // Музыка народов Азии и Африки. Вып. 4. – Москва: Советский композитор, – 1984.– 328 с. – с. 179-193.Ихтисамов, Х.С. Заметки о двухголосном гортанном пении тюркских и монгольских народов // Музыка народов Азии и Африки. Вып. 4. – Москва: Советский композитор, – 1984.– 328 с. – с. 179-193.

[49] Ихтисамов, Х.С. К проблеме сравнительного изучения двухголосного гортанного пения и инструментальной музыки у тюркских и монгольских народов // Народные музыкальные инструменты и инструментальная музыка. Сб. статей и материалов в 2-х частях. Ч. 2. Под общ. ред. Е.В. Гиппиуса. Ред.-сост. И.В. Мациевский. – Москва: Советский композитор, – 1988. – 328 с. – с. 197-216.

[50] Рахимов, Р.Г. Фактура башкирской инструментальной монодии. Фольклорное исследование. 2-е изд. / Р.Г.Рахимов. – Уфа: Вагант, – 2007. – 130 с., ноты, фото.

51 Сузукей, В.Ю. Бурдонно-обертоновая основа традиционного инструментального музицирования тувинцев: / Автореферат дис. кандидата искусствоведения. / – Спб., 1995. – 20 с.

[52] Сузукей, В.Ю. Музыкальная культура Тувы в XX столетии. / В.Ю.Сузукей – Москва: Композитор, – 2007. – 408 с.

[53] Утегалиева, С.И. Звуковой мир музыки тюркских народов: теория, история, практика (на материале инструментальных традиций Центральной Азии) / С.И.Утегалиева. – Москва: Композитор, – 2013. – 528 с., нот., схемы, илл.

[54] Халтаева, Л.А. Генезис и эволюция бурдонного многоголосия в контексте космогонических представлений тюрко-монгольских народов / Л.А.Халтаева. – Улан-Удэ: Республиканская типография, – 2015. – 176 с., ил.

[55] Галицкая, С.П. К проблеме фактуры монодии // – Новосибирск, Вестник музыкальной науки, – 2015. № 4(10), – с. 81-85

[56] Галицкая, С.П. К проблеме фактуры монодии // – Новосибирск, Вестник музыкальной науки, – 2015. № 4(10), – с. 81-85

[57] Ульмасов, Ф.А. Многомерность восточной монодии в контексте сольного вокально-инструментального музицирования: на материале таджикской и узбекской традиционной музыки: / Дис. доктора искусствоведения. / – Новосибирск: НГК (академия) им. М.И. Глинки, – 2017. – 341 с.

bitkin musiqi forması öyrənilmişdir; 2) kuray küylərində musiqi forma yaranışı və bitkin musiqi formasının müstəqil təhlili aparılmışdır; 3) ŞQ və B-ÖB sıbızğı küylərindəki musiqi forma yaranışı və musiqi forması quray küylərindəki müvafiq proseslərlə qarşılaşdırılmış və müqayisə edilmiş, nəticədə sıbızğı və quray küylərində musiqi formasının oxşarlıq və fərqlilik əlamətləri müəyyənləşdirilmişdir.

Başqırdıstan etnomusiqişünasları tərəfindən quray küylərinin məqam quruluşunun daha öncələr tədqiqinə baxmayaraq, III fəsildə adları çəkilən janrlardakı quray küylərində məqam formalaşmasının və onun növlərinin müstəqil təhlili aparılmışdır. İlk dəfə olaraq: 1) ŞQ və B-ÖB sıbızğı küylərində məqamın formalaşması üsulu və növləri öyrənilmişdir; 2) sıbızğı küylərindəki məqam formalaşması üsulu və növləri quray küylərindəki analoji proseslərlə qarşılaşdırılmış və müqayisə edilmişdir. Nəticədə sıbızğı və quray küylərinin məqam quruluşundakı oxşarlıq və fərqlilik əlamətləri müəyyən edilmişdir. Həmçinin ilk dəfə olaraq sıbızğı və quray küylərinin məqam quruluşu üçün ümumi olan angemiton (yarımtonsuz) növlü *"məqam həlqələri"* (cəmi 5 həlqə) aşkar edilmiş və təsvir olunmuşdur.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti. Dissertasiya qazax və başqırd ənənəvi musiqisinin, eləcə də türk xalqları musiqisinin tədqiqatçıları olan etnomusiqişünaslar üçün nəzəri əhəmiyyət kəsb edir. Tədqiqatın nəticə və müddəaları qazax və başqırd ənənəvi musiqisinin nəzəriyyəsi və tarixi sahəsindəki mövcud bilikləri genişləndirə, habelə onların gələcək tədqiqat perspektivlərini müəyyən edə bilər. Dissertasiya işi orta, ali incəsənət və mədəniyyət təhsili müəssisələrinin şagird və tələbələri tərəfindən "Qazax ənənəvi musiqisinin tarixi və nəzəriyyəsi", "Başqırd ənənəvi musiqisinin tarixi və nəzəriyyəsi", "Türk xalqlarının ənənəvi musiqisi" kimi fənlərin öyrənilməsində dərs vəsaiti kimi istifadə oluna bilər. Tədqiqatın nəticələrindən müəllifin pedaqoji fəaliyyətində istifadə olunur.

Approbasiyası və tətbiqi. Tədqiqatın əsas müddəaları və əldə olunmuş elmi nəticələr Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə edilən

Azərbaycanın dövri elmi nəşrlərində, həmçinin Özbəkistan Dövlət Konservatoriyasının Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallar siyahısına daxil olan musiqişünaslıq elmi jurnalında məqalələr şəklində dərc olunmuşdur. Sözügedən elmi nəşrlər indeksləşdirmə sistemlərinə daxildir. Qazaxıstan Respublikasında da iddiaçının musiqişünaslıq üzrə toplularda məqalələri dərc olunmuşdur. Müəllif tədqiqat mövzusu ilə bağlı bir neçə beynəlxalq konfransda məruzələrlə çıxış etmişdir.

Dissertasiyanın yerinə yetirildiyi yer. Dissertasiya Azərbaycan Milli Konservatoriyasının "Etnomusiqişünaslıq" kafedrasında yerinə yetirilmişdir.

İşin strukturu, dissertasiyanın və hər bir hissəsinin ayrılıqda ümumi işarə sayı. Dissertasiya işi (Mündəricat), Giriş, üç fəsil, Nəticələr, İstifadə edilmiş ədəbiyyat siyahısı, Mətn və Not əlavələrindən ibarətdir. Dissertasiyanın işini ümumi olaraq 153 səhifə, 231,171 işarə təşkil edir. Girişi 16 səhifə, 25,230 işarə, I fəsil 28 səhifə, 44,001 işarə, II fəsil 42 səhifə, 59, 041 işarə, III fəsil 47 səhifə, 70,367 işarədən ibarətdir. Nəticə bölməsində isə 22 səhifə, 32532 işarə var. İstifadə edilmiş ədəbiyyat siyahısı 29 səhifədir ədəbiyyat siyahısına işin yazılması prosesində öyrənilmiş 259 mənbə daxildir. Əlavə bölməsi 30 səhifədir.

DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

1-ci fəsil **"Sıbızğı və quray üçün oxşar küy janrları. Rəvayət komponenti"** adlanır.

1-ci paraqraf ***"1.1. Qazax dilində küy və başqırd dilində köy sözlərinin mənaları. Sıbızğı və quray üçün küylərdə şifahi rəvayət janrları: oxşarlıqlar və fərqlər"*** adlanır. Burada qeyd olunur ki, qazax və başqırd dillərində küy və köy sözlərinin eyni mənaları var: bunlardan birincisi melodiya, ikincisi ənənəvi milli musiqi alətləri üçün müəyyən janrda instrumental miniatürdür. İki qrup küylər müəyyən edilmişdir. Şifahi rəvayətin 1-ci qrupuna əfsanə, 2-ci qrupuna xalq hekayəti (qazax dilində - əngimə) janrı aiddir.

2-ci paraqraf ***"1.2. Sıbızğı və quray üçün küy adlarında və onların şifahi rəvayətlərinin mətnlərindəki obrazlar: oxşarlıqlar və fərqlər"*** adlanır. Burada qeyd olunur ki, küy adları və onların əfsanə

və hekayələrinin mətnləri ortaq obrazları bölüşür. Bunlara 1) köçəri həyat və ev heyvanları, 2) epik personajlar – cəsurlar, 3) ovçuluq və ovçu, vəhşi heyvanlar və ov quşları aiddir.

Quş təsvirləri quray üçün küylərin təsvirlərində mühüm yer tutur - bunlara durna, qarğa, ququ quşu, bildirçin, ördək, şanapipik (qeyd edək ki, bunlar ümumiyyətlə Qazaxıstan küyləri və xüsusən də sıbızğı üçün küylərə tipik deyil), eləcə də şahinlər, xüsusən də qızıl qartal təsvirləri daxildir. Quş təsvirləri sıbızğı üçün küylərdə unikaldır – sıbızğı üçün yalnız bir küy, Şərqi Qazaxıstandan olan "Şınıray" küyündə mifik quş Şınıray təsvir olunur. Əksinə, ov təsvirləri ilə bağlı olan sıbızğı küylərində quray küylərinə tipik olmayan vəhşi heyvanların təsvirləri var.

Sıbızğı üçün nəzərdə tutulmuş küylərin şifahi hekayələri qazaxlarla qonşu xalqlar – u ranxaylar (tıvalılar) və qalmaqlar (kalmıklar) arasındakı münasibətləri əks etdirdiyi halda, quray üçün nəzərdə tutulmuş küylərin hekayələri qazaxlarla başqırdlar arasındakı münasibətləri işıqlandırır. Buna görə də, bizim fikrimizcə, sıbızğı və quray küylərinin adlarında və onların hekayə hissələrində əks olunan bir sıra obrazların oxşarlığı təkcə tipoloji xarakter daşımır, həm də qismən genetik xüsusiyyətə malik ola bilər. Bu oxşarlıq qazaxların və başqırdların ənənəvi əmək növləri, sosial quruluşları və qonşu türkdilli xalqlarla münasibətləri kimi sosial-mədəni amillərlə şərtlənir.

"Sıbızğı və quray üçün küylərin başlıqlarında və şifahi rəvayət mətnlərində simvolik obrazlar: oxşarlıqlar və fərqlər" adlı üçüncü paraqrafda qeyd olunur ki, sıbızğı və quray üçün küylərin adlarında və onları müşayiət edən şifahi hekayələrdə rast gəlinən obrazlar qazax və başqırd xalqlarının erkən dövr ənənəvi mifoloji dünyagörüşünün elementlərini bədii şəkildə əks etdirir. Bu əfsanə və hekayələrin mətnlərində simvolik məna daşıyan obrazlar yer alır: həmin obrazlar həm qazax, həm də başqırd xalqlarının şifahi-poetik və musiqi ənənələrində tipoloji, bəlkə də genetik baxımdan oxşarlıq təşkil edir. Bu simvolikanın üç aspektini müəyyən etmək mümkündür. Birinci aspekt aşağıdakı obrazlarla bağlıdır: a) ehtiram göstərilən əcdadlar – döyüşçü bahadırlarla; b) müqəddəs sayılan totem heyvanlar və quşlar, habelə kainatın aləmləri arasında sərhəd

rolunu oynayan çay (su) obrazı ilə. İkinci aspekt qazax və başqırdların qədim ənənəvi adətlərini əks etdirən obrazlarla bağlıdır: Bura 1) yas mərasimi – qazaxca *joktau*, başqırdca *hıqtau,* 2) dərdli şəxsə təsəlli vermə – *toktau aitu, toktatu* və ya *jübatu*), 3) vidalaşma -qazaxca *qoştasu*, başqırdca *huşlaşıu*, 4) hər hansı bir şəxsə və ya hadisəyə (eləcə də ev heyvanına və ya ov quşuna) xüsusi bir küy və ya mahnı həsrətmə adəti (qazaxca *küydi/əndi arnau, bağıştau*, başqırdca *köyźe/yırźı bağışlau*) aiddir.

Üçüncü aspekt müəyyən rənglərin simvolikası (sinesteziya) ilə bağlıdır. Rəng xüsusiyyətləri müxtəlif totem heyvanların və quşların, eləcə də təbiət obyekti olan çayın obrazları ilə əlaqələndirilir. Tipoloji və ehtimal ki, genetik baxımdan ağ, mavi (açıq mavi), sarı, qırmızı, qara və qəhvəyi rənglər arasında oxşarlıqlar mövcuddur.

Sıbızğı və quray üçün küylərin rəvayət mətnində biz dörd oxşar süjet xəttini üzə çıxarmışıq. Bu, qazax və başqırd şifahi və instrumental ənənələrinin poetikasında mümkün genetik ortaq cəhətlərin mövcudluğuna dəlalət edir. Sıbızğı və quray üçün küylərin rəvayət komponentinin mətnindəki məzmun, yəni onların konteksti sabit, təkrarlanan poetik əsas kimi rəvayət və musiqinin ikili vəhdətini ortaya qoyur.

4-cü paraqraf ***"1.4. Sıbızğı və quray üçün küylərin bitkin formasında şifahi rəvayət və musiqinin nisbəti: oxşarlıq və fərqlər"*** adlanır. Burada sıbızğı və quray üçün küylərdə rəvayət və musiqi arasında iki növ əlaqənin olduğu bildirilir. Bunlar *"semantik və kompozisiya"* əlaqələridir. Onlar bütöv küyün iki formasını təşkil edir. Birincisi, *"əfsanə daxilində küy"* və *"kuy-əfsanə"* xüsusiyyətlərinə malik *"qarışıq musiqi yaradıcılığı formasıdır*". Bu, küy-əfsanə janrı üçün səciyyəvidir. İkincisi isə "*ayrı musiqi yaradıcılığı forması" olan"küy və əfsanə*" [58]dir. Bu, küy-ithaf janrına xasdır.

I fəsildə qeyd olunan xüsusiyyətlər və ya parametrlər əsasında sıbızğı və quray üçün küylərlə bağlı əfsanə və hekayələrin

[58] Мухамбетова, А.И. Генезис и эволюция казахского кюя (типы программности) // Аманов Б.Ж., Мухамбетова А.И. Казахская традиционная музыка и XX в. – Алматы: Дайк-Пресс, – 2002. – 544 с. – с. 119-152. – . 121, 127, 129-130.

müqayisəli təhlilinin nəticələrini ümumiləşdirərək, aşağıdakı qənaətə gəldik. İki instrumental janr – ŞQ və B-OR ərazilərinin sıbızğı üçün "əfsanə-küy" (аңыз күй) və müasir Başqırd Respublikasının cənub, cənub-şərq və şərq regionlarındakı quray üçün "əfsanə-küyü" (*легенда көйө*), 2) həmçinin ŞQ və B-OR ərazilərinin sıbızğı üçün "ithaf küyləri" (*арнау күй*) və müasir Başqırd Respublikasının cənub, cənub-şərq və şərq regionlarındakı quray üçün "ithaf-küyləri" qarşılıqlı şəkildə oxşardır. Bu oxşarlıq təkcə tipoloji xarakter daşımır, həm də ehtimal ki, genetik xarakterlidir.

Sıbızğı və quray üçün küylərin müqayisəli tədqiqatının nəticələri də göstərdi ki, onların küy-əfsanə", "küy-ithaf" və ya "proqramlı-təsviri rəqs küylər" olmasından asılı olmayaraq, musiqi strukturunun müxtəlif aspektləri – ifadə tərzi, musiqi forması və onun təşəkkülü, məqam strukturu əhəmiyyətli dərəcədə fərqlənmir və vahidliyə meyl edir. Bu qənaətlər II və III fəsillərdə öz əksini tapmışdır.

II fəsil **"Sıbızğı və quray üçün küylərin musiqi quruluşu və musiqi forması: oxşarlıq və fərqlər"** adlanır. Birinci paraqraf ***"2.1. Sıbızğı və quray üçün küylərin musiqi quruluşu"*** adlanır. Bu, sıbızğı və quray üçün küylərdə *"monodik"*[59] musiqi quruluşunun növlərinə həsr olunub. 1-ci bənddə *"2.1.1. Sıbızgı və qurayda qırtlaq səsi (burdon) ilə ifa edilməsi"*indən söz açılır. Burada göstərilir ki, *"çoxqatlı monodik lay" – "burdon quruluşu"*[60] sıbızğı və quray küylərinin əsasını təşkil edir.

2-ci bənd *"2.1.2. Quray küylərinin burdon quruluşlu melodizasiyası"* adlanır. Burada bir neçə "*burdon quruluşlu"* quray küylərində burdon layının 4 variant melodizasiyasının səciyyəsi verilmişdir. Şərqi Qazaxıstanda və B-OR-da qazax əhalisi arasında sıbızğı ifaçılığı ənənəsi üçün burdonun səs yüksəkliyinin sabitliyi səciyyəvidir. Eləcə də quray ifaçılığı ənənəsinə həm burdon yüksəkliyinin sabitliyi, həm də onun çevikliyi səciyyəvidir.

3-cü bənd *"2.1.3. Sıbızğı və qurayın epizodik şəkildə qırtlaq səsi (burdon) olmadan ifası"* adlanır və *"çoxlaylı monodik quruluş*"dan, "*təklaylı monodik quruluş"dan*, eləcə də "*ciddi*

[59] Галицкая С.П., Плахова А.Ю. Тот же источник. – с. 214-215.
[60] Галицкая С.П., Плахова А.Ю. Тот же источник. – с. 220-222.

təksəslilikdən” söz açılır. Burada sıbızğı və quray üçün bir neçə küy qeyd olunur. Bunlarda iki növ quruluş - *“çoxlaylı monodik”* quruluş ilə *“təklaylı monodik quruluş” – “ciddi təksəsli quruluş”*[61] uzlaşır. Sıbızğı və quray üçün bir neçə küy vardır ki, onlarda bəzən burdon növlü qırtlaq səsi olmadan, yalnız instrumental melodiya çalınır. Buna görə də, onların səs toxumasında instrumental melodiya şəklində təzahür edən üfüqi (horizontal) *"çoxsəsli"* fraqmentlərlə *“təksəsli”* fraqmentlər növbələşir.

4-cü bənd *“2.1.4. Quray üçün küylərdə melodiyanın təbəqələşməsi və “çoxlaylı monodiya quruluşu”* növlərinin uzlaşması” adlanır. Burada quray üçün iki qrup küy müəyyən edilir. Birinci qrup küy *“burdon strukturu” və “dolğunlaşmış koloristik struktur”*[62] əlamətlərini nümayiş etdirir. İkinci qrup küylər *“oktava unison strukturu” və “dolğunlaşmış koloristik struktur”* [63] əlamətlərini nümayiş etdirir.

II fəslin 2-ci paraqrafı ***“2.2. Sıbızğı və quray üçün küylərin musiqi forması”*** adlanır. Dörd bənddən ibarətdir. 1-ci bənd *“2.2.1. Musiqi formasının regitr aspekti. Sıbızğı və quray üçün küylərin sintaktik və ritmik strukturunun ümumi nümunələri*” adlanır. Burada sıbızğı və quray üçün küylərdə musiqi formasının sintaktik və ritmik strukturunun oxşar əlamətləri sadalanır. Bu, *“melodik formullar”*[64,65] və sinkretik *“ritmik formullar”*[66]ardıcıllığından ibarət musiqi formasının yığılmasıdır. Burada ritmik quruluşun üç oxşar üsulu müəyyən edilmişdir: Bunlar ostinato, ritmik formullar toplusu və təkrarlanan ritmik formullar ardıcıllığıdır.

---

[61] Галицкая С.П., Плахова А.Ю. Тот же источник. – с. 213, 216.

[62] Галицкая, С.П. Монодия: проблемы теории / С.П.Галицкая, А.Ю.Плахова. – Москва: Academia, – 2013. – 320 с. – с. 213, 220.

[63] Галицкая С.П., Плахова А.Ю. Тот же источник. – с. 213, 218-220.

[64] Лебедев, С.Н. Мелодическая формула. Большая российская энциклопедия https://bigenc.ru > musik > tekst

[65] Холопов, Ю. Пентатоника как род интервальных систем // Материалы межреспубликанской научной конференции «Пентатоника в контексте мировой музыкальной культуры», Казань: Казанская консерватория, – 1-2 ноября, 1993, – 1995, – с. 5-6.

[66] Холопова, В.Н. Теория музыки: мелодика, ритмика, фактура, тематизм / В.Н.Холопова. – СПб.: Лань, – 2002. – 368 с., ил., с. 116-117.

2-ci bənd *"2.2.2. Sıbızğı üçün küy musiqi formasının bir hissəsinin sintaktik quruluşu"* adlanır. Burada sıbızğı üçün küylərin bir hissənin yaranmasının üç prinsipi müəyyən edilir. Bunlar dövrilik, təzadlı qarşılaşdırma, habelə dövrilik ilə təzadlı qarşılaşdırma prinsiplərinin birləşməsidir. Nəticədə, bölmə daxilində iki sintaktik struktur əmələ gəlir. Birincisi, "dövriyyə cütü" AABB[67], ikincisi isə "təzadların təkrarı" – ABAB[68] əsasında qurulur.

Sıbızı və quray üçün küylərdı ritmik forma qurulmasının üç oxşar üsulu istifadə olunur. Birincisi, ostinato üsuludur. İkincisi, ritmik formulların toplanması üsuludur. Bu zaman ritmik planda qurulan musiqi forması sonradan təkrarlanmayan oxşar və ya fərqli şəklə malik bir neçə ritmik formulun toplanması ilə tərtib edilir. Üçüncüsü, ritmik formulaların öz təkrarları ilə ardıcıllığı üsuludur. Ritmik planda qurulan bu musiqi forması, vaxtaşırı bir neçə fərqli ritmik formulaların dəqiq və ya variant təkrarları ilə toplanması yolu ilə əmələ gəlir. Xalis formada "izoritm" kimi ostinato texnikası sıbızğı üçün küylərin musiqi formasının ritmik strukturunda mövcuddur. Quray üçün küylərin musiqi formasının ritmik strukturunda o, xalis formada mövcud deyil. O, yalnız digər iki üsul ilə birlikdə mövcuddur. Bununla da quray üçün küyün musiqi formasının ritmik quruluşu sıbızğı üçün küyün musiqi formasının ritmik quruluşundan fərqlənir. Sıbızğı və quray üçün kuy musiqi formasının ritmik aspektindəki oxşarlıq ondan ibarətdir ki, "bərabər ritm"ə malik ritmik formullar kəmiyyətcə "qeyri-bərabər ritm"ə malik ritmik formullardan üstündür.

3-cü bənd *"2.2.3. Quray üçün küy musiqi formasının bir hissəsinin sintaktik quruluşu"* adlanır. Burada quray üçün küylərdə bir bölmənin yaranmasının üç prinsipi göstərilmişdir. Quray üçün küy bölmələrinin sintaktik quruluşu sıbızğı üçün küy bölmələrinin sintaktik quruluşundan aşağıdakı kimi fərqlənir. Belə ki, quray küylərindəki bölmə dörd melodik misradan ibarət melodik bənd kimi tərtib olunur və üç variantda ifadə edilir. Birinci variant "dövriyyə

[67] Цуккерман, В.А. Анализ музыкальных произведений. Общие принципы развития и формообразования в музыке. Простые формы / В.А.Цуккерман. – Москва: Музыка, –1980. –296 с., нот. –с. 67.
[68] Цуккерман В.А. Тот же источник. –с. 67.

cütü"[69] AABB-dir. İkinci variant dörd ABAC-ın üç fərqli quruluşudur. Üçüncü variant isə üç dövriyyəli AABBCC-dir.

4-cü bənd *"2.2.4. Sıbızğı və quray üçün küylərin musiqi forması"* adlanır. Burada deyilir ki, quray və sıbızğı üçün əksər küylər variant şəklində təqdim olunur. Bu, ümumi formadır. Onun sxemi belədir: I A, IIA1, III A2, IV A3... Hər bölmənin funksiyası *"eyni obrazın... variantı"*[70] kimi təyin edilə bilər. Şərqi Qazaxıstan küylərinin variantlı forması iki, üç və ya dörd variant bölməsindən ibarət olur. B-OR küylərində isə bölmələrin sayı ikidən beşə qədər dəyişir. Quray üçün nəzərdə tutulmuş variantlı formalı küylər isə adətən azı iki bölmədən ibarət olur. Lakin üç və ya dörd variant bölməsindən ibarət küylərə də rast gəlinir.

Ümumi struktur daxilində, birinci bölmədən sonrakı hər bir variant bölməsinin funksiyası ilkin bölmənin musiqi materialını ya eynilə, ya da dəyişdirilmiş formada təkrar etməkdən ibarətdir. Sıbızğı və quray üçün küylər arasında oxşarlıq təkcə tipoloji deyil, həm də potensial olaraq genetik xarakter daşıyır.

3-cü fəsil **"Sıbızğı və quray üçün küy melodiyalarının məqam quruluşu: oxşarlıqvə fərqlər"** adlanır. 1-ci paraqraf ***"3.1. Sıbızğı və quray üçün küylərdə məqamın tipi və onun növləri. Məqamın oxşar əmələgəlmə üsulları"*** adlanır və üç bənddən ibarətdir.

1-ci bənd *"3.1.1.Məqamın funksional vahidləri" və sıbızğı və quray üçün küy melodiyalarında məqam funksiyalarının əmələgəlmə üsulları"* adlanır. Burada melodiyada məqamın oxşar *"funksional vahidləri"* [71] sadalanır. Birinci növ musiqi səsi, ikinci növ isə bu musiqi səsinin obertonudur. O, daha güclü üfürmə yolu ilə əmələ gəlir. Üç məqam funksiyanın əmələ gəlməsinə təsir edən üç vasitə - əsas dayaq (dayaq), ikinci dərəcəli dayaq və yarım dayaq qeyd

[69] Цуккерман, В.А. Анализ музыкальных произведений. Общие принципы развития и формообразования в музыке. Простые формы / В.А.Цуккерман. – Москва: Музыка, – 1980. – 296 с., нот. – с. 67.

[70] Цуккерман, В.А. Анализ музыкальных произведений. Общие принципы развития и формообразования в музыке. Простые формы / В.А.Цуккерман. – Москва: Музыка, – 1980. – 296 с., нот. – с. 379.

[71] Бершадская, Т.С. Лекции по гармонии. 3 изд., доп. / Т.С.Бершадская. – СПб.: Композитор, – 2003. – 268 с., нот. – с.71-72, 101-102.

olunur. Bunlar: 1) səs tonları, 2) ritmik vasitələr – uzunmüddətli və ritmik təkrar, 3) forma yaradan vasitələr – onların strukturun sonunda və formanın yekun bölməsində yerləri. Burdon səsi məqamın I pilləsilə – əsas dayaq səsi ilə oktava və ya kvintdesima yaradır və onun funksiyasını artırır.

2-ci bənd *"3.1.2. Sıbızğı və quray üçün küy melodiyalarında "məqam həlqələri" və məqam quruluşları"* adlanır. Burada məqam strukturunun vahidləri verilir. Birincisi *"məqam həlqələridir"* dir. İkincisi *məqam quruluşlarıdır*. *Məqam quruluşları* musiqi forması *quruluşlarına* uyğun gəlir, dəqiq və dəyişkən təkrarlanma və qarşılıqlı kombinasiyalar vasitəsilə müxtəlif sayda *"məqam həlqələrindən"* (2-dən 3-4-ə qədər) ibarətdir. Quray üçün bir neçə küyün məqam yaranışında *"modal səs yükəskliyi transpozisiyası"*[72] səciyyəvi üsuldur.

Sıbızğı və quray üçün küylərin *"melodik formulları"* və *"məqam həlqələrinin"* interval quruluşu, həmçinin onların daxilindəki dayaq və qeyri-dayaq funksiyalar arasındakı nisbət nəzərdən keçirildikdə, melodiyaların məqam təşkili ilə bağlı müəyyən oxşarlıq və fərqlər üzə çıxır. Küyün musiqi formasında sintaktik vahid rolunu oynayan *"melodik formul"* və həmin formulla sinkretik və ya *"diffuz"* xarakter daşıyıb modal-monodik sistemin bir komponenti kimi çıxış edən *"məqam həlqəsi"* vahid bir intonasiya vasitəsilə ifadə olunur. Sıbızğı və quray üçün küylərdə bu *melodik formulların* və onlarla əlaqəli *"diffuz" "məqam həlqələrinin"* intonasiyaları interval quruluşu baxımından fərqlənsə də, eyni zamanda qarşılıqlı oxşarlıqlara da malikdir.

Bu oxşarlıq və fərqlilik aşağıdakı üç qanunauyğunluqla şərtlənir. İnterval quruluşlarına görə bütün "*melodik formullar"* və onlarla əlaqəli olan *"məqam həlqələri"* iki qrupa bölünə bilər. Birinci qrupa yarımtonları olmayan (anqemiton) intonasiyalar, ikinci qrupa isə bir və ya iki yarımtonu ehtiva edən (qemiton) intonasiyalar aiddir. Sıbızğı və quray üçün nəzərdə tutulmuş küy melodiyalarında

[72] Маклыгин, А.Л. О модальных свойствах пентатоники в песнях луговых мари // Материалы межреспубликанской научной конференции «Пентатоника в контексте мировой музыкальной культуры», – Казань: Казанская консерватория, – 1995, – с. 49-60. – с. 52-53.

rast gəlinən və tərkibində yarımton olan *melodik formullar* və *"məqam həlqələri"* mahiyyət etibarilə oxşardır: onlar diatonik trixord, tetraxord və pentaxordlardan ibarətdir. Onlar məqam pillələri üzrə pilləvari hərəkət intonasiyalarına, məsələn, a) yuxarıya doğru hərəkət, b) aşağıya doğru hərəkət, c) yuxarıya və aşağıya doğru hərəkət və d) aşağıya və yuxarıya doğru hərəkət intonasiyalarına əsaslanır.

Bu tədqiqatda əsasən sıbızğı və quray üçün küy melodiyalarındakı anqemiton *"melodik formullar"* və "*məqam həlqələri"* arasında interval quruluşu və diapazon baxımından mövcud olan oxşarlıqlara diqqət yetirilmişdir. Məsələnin belə qoyuluşu sözügedən mövzunun hərtərəfli araşdırılmamış olması faktından irəli gəlir. Müqayisəli intonasiya təhlilinin nəticələri interval quruluşu və diapazon baxımından oxşar olan beş anqemiton *"melodik formul"/"məqam həlqələrinin"* mövcudluğunu üzə çıxarır; bunlar həm yarımtonsuz, həm də yarımtonlu məqamlarda rast gəlinən ortaq elementlərdir.

III fəslin 2-ci paraqrafı ***"3.2. Yarımtonsuz məqamlarda sıbızğı və quray üçün küylər: oxşarlıq və fərqlər"*** adlanır. İki bölmədən ibarətdir.

1-ci bənd *"3.2.1. Yarımtonsuz məqamlarda sıbızğı üçün küylər"* adlanır. Burada qeyd olunur ki, BK və B-OR küylərinin əksəriyyəti *"g səs sıralı"*[73] pentatonik qammada ifa olunur. Küylərin həmçinin az bir hissəsi yarımtonu olmayan heksatonik və tetratonik qammalarda ifa olunur. Avtentik növlü qeksatonika – altı pilləli qamma yalnız Şərqi Qazaxıstan qrupunun iki küyündə müşahidə olunur. Yarımtonları olmayan bir məqam kimi, o, *"g səs sıralı"* pentatonik qammaya əsaslanmış və əlavə bir səslə tamamlanmışdır. Onun septima diapazonunda strukturu, beşinci pillədən sonra gələn altıncı notun əlavə edilməsilə *"g səs sıralı"* pentatonikanın strukturuna uyğun gəlir. Plaqal növlü tetratonika B-OR qrupundakı dörd küy üçün səciyyəvidir: birinci variantda subkvarta ilə, ikinci

[73] Кондратьев, М.Г. Основные свойства чувашской пентатоники // Пентатоника в контексте мировой музыкальной культуры. Материалы межреспубликанской научной конференции. – Казань: Казанская консерватория, – 1-2 ноября 1993 г., – 1995. – 195 с. – с. 86-91. – с. 87.

variantda isə subseksta və subkvarta ilə. Pentatonika, qeksatonika və tetratonikanın həm avtentik, həm də plaqal formalarında ümumi cəhəti ondan ibarətdir ki, əsas istinad funksiyasını məqam səs sırasının birinci pilləsinin c2 səsi yerinə yetirir.

2-ci bənd *"3.2.2. Yarımtonsuz məqamlarda quray üçün küylər"* adlanır. Burada deyilir ki, quray üçün küylərdə yarımtonsuz üç məqam var. Birincisi pentatonika, ikincisi isə avtentik növün altıtonlu qeksatonikasıdır. Onun əsasını "*g səs sıralı*" pentatonika təşkil edir. Üçüncüsü – on iki tonlu məqamdır ki, tək bir küydə rast gəlinir. Pentatonika üç növ ilə təmsil olunur: 1) "*g səs sıralı"* 2) "*d səs sıralı*" və 3) "*e səs sıralı*"[74].

Müəyyən edilmişdir ki, sıbızğı və quray üçün küylərdə yarımtonsuz iki məqam – birincisi *"g səs səralı"* pentatonika, ikincisi avtentik növün qeksatonikası – oxşardır.

III fəslin 3-cü paraqrafı ***"3.3. Yarımtonlu məqamlarda sıbızğı və quray üçün küylər: oxşarlıqlar və fərqlər"*** adlanır. 1-ci bənd "3.3.1. Yarımtonlu avtentik məqamlarda sıbızğı və quray üçün küylər" adlanır. Burada yarımtonlu avtentik məqamlar arasındakı oxşarlıqlar və fərqlər vurğulanır. Məlum olur ki, sıbızğı və quray üçün küylərdə natural major yönümlü avtentik məqamlar oxşardır.

Sıbızğı və quray üçün küylərdə avtentik növlü məqamların oxşarlığı və fərqi, onların ümumi səs sıralarındakı səslərin sayından və həcmindən asılıdır. Majorun natural halına meylli məqamlardan yalnız sıbızğı küylərindəki oktava həcmli 7 pilləli məqam ilə quray küylərindəki septima həcmli 7 pilləli məqam oxşardır. Digər məqamlar fərqlənir. Məqamın əsas dayaq funksiyasını – istinad pilləsini 1-ci pillə yerinə yetirir.

Melodiyalarda məqam gəzişmələri sıbızğı küylərində orta registrdə, quray küylərində isə orta və ya alt, habelə orta registrlər çərçivəsində baş tutur.

[74] Кондратьев, М.Г. Основные свойства чувашской пентатоники // Материалы межреспубликанской научной конференции «Пентатоника в контексте мировой музыкальной культуры», – Казань: Казанская консерватория, – 1-2 ноября 1993 г., – 1995, – с. 86-91. – с. 87.

Məqam meylliliyi əlamətinə görə sıbızğı küylərindəki məqamlar yalnız majora, quray küylərindəki məqamlar isə həm major, həm də minora meyl edirlər.

Sıbızğı küylərinin məqam strukturundakı major meylliliyi bir tək natural xarakter daşıyır. Quray küylərinin major və minor meylli məqamları isə həm natural, həm də ikili, yəni eyni bir pillənin müəyyən intervalla ayrılan yüksək və ya alçaq variantlarının mövcudluğu ilə şərtlənən meylliliyə malikdir. İkili meyllilik özünü aşağıdakı şəkildə büruzə verir: natural 4-cü və yüksək 4-cü pilləli, yaxud natural 7-ci və alçaq 7-ci pilləli major meylli məqam; natural 2-ci və alçaq 2-ci pilləli, yaxud natural 6-cı və yüksək 6-cı pilləli minor meylli məqam. Beləliklə, məqam meylliliyi əlamətinə görə sıbızğı və quray küylərindəki oxşar məqamlar - natural major meylli avtentik növlü məqamlardır.Minor meylli avtentik məqamlar quray küyləri üçün xarakterik olsa da, sıbızğı küylərinin strukturuna xas deyildir.

Sıbızğı və kuray küylərindəki avtentik növlü məqamların tipoloji oxşarlığı və fərqi, onların səsqatarlarındakı tonların sayı və diapazonu ilə müəyyən edilir. Natural major meylli məqamlardan yalnız sıbızğı küylərindəki 8 pillə diapazonlu 7 pilləli məqam ilə quray küylərindəki 7 pillə diapazonlu 7 pilləli məqam oxşarlıq təşkil edir. Digər məqamlar fərqlənir: quray küylərinə xas olan 9 və 13 pilləli məqamlar sıbızğı küylərində müşahidə edilmir; sıbızğı küylərinə xas olan 5, 6 və 8 pilləli məqamlar isə quray küylərinin strukturunda yer almır.

Məqamın əsas dayaq funksiyasını bir qayda olaraq səsqatarının bünövrəsində yerləşən 1-ci pillə yerinə yetirir. Şərqi Qazaxıstana aid iki küy istisnalıq təşkil edir: "Kök buqa" (*Көк бұқа*) küyündə əsas dayaq funksiyasını səsqatarının ən yüksək səsi, "Küy sandık" (*Күй сандық)* küyündə isə əsas dayaq funksiyasını səsqatarının 2-ci pilləsi daşıyır.

Registr dinamikası əlamətinə görə oxşarlıq və fərq ondan ibarətdir ki, sıbızğı küylərində melodik gəzişmələr yalnız bir bir, yəni orta registr hüdudlarında, quray küylərində isə bir (orta) və ya iki registr (aşağı və orta) diapazonunda reallaşır.

2-ci bənd "3.3.2. Sıbızğı və quray küylərində plaqal yarımtonlu məqamlar" adlanır. Burada plaqal yarımtonlu məqamlar arasında aşağıdakı oxşarlıqlar və fərqlər qeyd olunur.

Sıbızğı və quray üçün küylərdə natural majorun plaqal növü əsas oxşar məqamlardır. Burada əsas dayaq funksiyasını qammanın mərkəzində yerləşən birinci pərdə yerinə yetirir.

Bir və iki yarımtonlu məqamlar sıbızğı və quray üçün küylərdə oxşar xüsusiyyətlər təşkil edir. Ümumi səs sıralarındakı səslərin sayına və həcminə görə, sıbızğı və quray küylərindəki 7 və 8 pilləli səs düzümünə malik məqamlar bir-biri ilə oxşardır. Sıbızğı küylərində oktava və duodesima həcmli səs düzümləri olan məqamlar, kuray küylərindəki oktava və tersdesima həcmli məqamlarla oxşarlıq göstərir. Subtonların sayına görə, sıbızğı küylərində (ŞK və B-OR) bir subtonlu – subkvartalı məqamlar, quray küylərindəki yenə bir subtonlu – subkvartalı məqamlarla oxşardır.

Registr əlamətinə görə, sıbızğı və quray küylərindəki plaqal tipli məqamlar alətlərin alt və orta registrlərində inkişaf edir. Əsasən orta registr üstünlük təşkil edir. Subtonlar isə alt registrdə hasil olunur.

4-cü paraqraf ***"3.4. Məqam dəyişkənliyi"*** adlanır. Burada qeyd olunur ki, sıbızğı və quray üçün küy melodiyalarında məqam strukturunun əsas xüsusiyyəti "*məqam dəyişkənliyi"*[75]dir. Qanunauygun haldır ki, yarımtonlu məqamlarda modal yarımdayaq (lokal dəstək) funksiyasını əksər qamma pərdələri yerinə yetirir. Ən çox bunlar: 1-ci, 2-ci, 3-cü, 5-ci, 6-cı və daha az hallarda 2-ci, 4-cü və 8-ci pərdələrdir. Yarımtonlu olmayan məqamlarda yarımdayaq funksiyasını 1-ci, 2-ci, 3-cü, habelə 1-ci pərdəyə nəzərən yuxarı kvinta və aşağı kvarta səsləri yerinə yetirir. Məqam dayağı funksiyasının sürüşməsinə bənzər şəkildə, məqam qeyri-dayağı (yerli dayaq) funksiyasının da sürüşməsi baş verir. Bir qayda olaraq, sıbızğı və quray üçün küylərin melodiyalarında küyün bütün bölmələri məqam səsdüzümünün birinci pilləsi ilə tamamlanır. Bu pillə hər iki alətin köklənmə səsinə uyğun gəlir və məqamın əsas dayağı – onun sabit səsi hesab olunur.

[75] Галицкая, С.П. Монодия: проблемы теории / С.П.Галицкая, А.Ю.Плахова. – Москва: Academia, – 2013. – 320 с. – с. 160.

5-ci paraqrafda cəm olunmuş səsdüzümləri səslərinin interval nisbəti qeyd olunur. Bu paraqraf ***"3.5. Toplanan səs sıralarının interval tərkibi"*** adlanır. Burada səsqatarlarının interval quruluşu kontekstində sıbızğı və quray küylərindəki məqam strukturlarının tipoloji oxşarlığı və burada səslərin interval nisbətləri müəyyən edilmişdir. Sıbızğı və quray küylərindəki məqamların, onların məcmu səsqatarlarının interval tərkibi və səsləri arasındakı qonşu (yanaşı) intervallar meyarı üzrə müqayisəli təhlili aşağıdakı elmi nəticələri ortaya qoymuşdur:

ŞQ (avtentik və plaqal növləri) və B-OR (yalnız plaqal növü) regional üslublarına aid yarımtonsuz məqamlarda toplam səsqatarının tonları iki səs-yüksəkliyi nisbətində qruplaşır. Birinci – kvarta-kvinta, ikinci isə – kvarta-tersiya nisbətidir. Quray küylərinə məxsus yarımtonsuz məqamların bütün növlərində isə toplam səsqatarlarının elementləri müstəsna olaraq kvinta-kvarta səs-yüksəkliyi nisbətində yerləşir.

Avtentik və plaqal növlü yarımtonlu məqamlarda olan sıbızğı küylərində toplam səsqatarlarındakı səslər üç fərqli səs-yüksəkliyi nisbətində yerləşirlər. Birinci – kvarta-kvinta, ikinci – kvarta-tersiya, üçüncü isə – kvinta-sekunda nisbətidir. Quray küylərində isə həm avtentik, həm də plaqal növlü yarımtonlu məqamların toplam səsqatarlarındakı səslər yalnız bir nisbətdə – kvarta-kvinta nisbətində yerləşirlər.

Sıbızğı və quray üçün küylərdə toplanan səs sıraları arasında aşağıdakı oxşar intervallar mövcuddur. Bunlar yarımtonlara (k.2) və bütöv tonlara (b.2) nisbətən bərabər olan sekundalar, *"qemiditon"* (k.3)[76], *"diton"* (b.3)[77] və yarımtonun cəmi olan 2,5 tondur.

[76] Холопов Ю.Н. Гармония. Теоретический курс. Учебник. / Ю.Холопов. – СПб.: Лань, – 2003. – 544 с., ил. – с. 132. Здесь и далее применены термины, предложенные Ю.Н. Холоповым относительно интервалов смежности в пентатонике как роде интервальной системы.

[77] Холопов Ю.Н. Гармония. Теоретический курс. Учебник. / Ю.Холопов. – СПб.: Лань, – 2003. – 544 с., ил. – с. 131.

Dissertasiyanın **Nəticə** bölməsində aparılan təhlillərdən əldə edilən əsas qənaətlər əksini tapmışdır:

Sıbızğı və qurayda hər iki janr – "küy-əfsanə" və "küy-ithaf" hər iki xalqın həm instrumental yaradıcılığına, həm də ənənəvi instrumental musiqisinə eyni dərəcədə səciyyəvidir. Onlar tipoloji və ehtimal ki, genetik baxımdan ümumidirlər. Beləliklə, sıbızğı və quray üçün sözügedən küylər janr kateqoriyası səviyyəsində bir-biri ilə oxşardır.

Qeyd olunan janrlara aid küylər musiqi quruluşuna görə də bənzərdir. Bu quruluş *«monodik»* tipə aiddir. Sıbızğı və quray küylərində musiqi quruluşunun iki əsas növü mövcuddur və onlar məhz bu əlamətə görə oxşarlıq nümayiş etdirirlər. Birincisi – *"çoxlaylı monodik quruluş"*dur, konkret olaraq isə *"burdonlu quruluşdur"*. İkinci musiqi quruluşu isə *"çoxlaylı monodik quruluşda"* olan forma elementlərinin "*təklaylı monodik quruluşda*", ilk növbədə *"ciddi təksəsli quruluşdakı"* elementlərlə ardıcıl növbələşməsi şəklində inkişaf edir.

Sıbızğı və quray üçün küylərin musiqi formasının arxitektonikasında tipoloji və ehtimal ki, genetik oxşar cizgilər mövcuddur. Bu cizgilər aşağıdakılardan ibarətdir:

- Musiqi formasının ən kiçik sintaktik vahidi bir *"melodik formuladır"*. "*Melodik formula dan"* sonrakı növbəti mərhələnin sintaktik vahidi isə bir *qurumdur*.
- Sintaktik səviyyədə formayaratmanın aparıcı üsulu toplama metodu və *"melodik formula ların*" kombinatorikası metodudur.
- *"Melodik formulaların"* cəmindən formalaşan *qurumlar* da öz növbəsində qruplaşaraq bölmələrdə birləşir.
- Bu prosesdə formayaratmanın üç universal qanunauyğunluğu iştirak edir: 1) dövrilik (periodiklik), 2) kontrast-qarşıqoyma və 3) sözügedən sintaktik vahidlərin – dövrilik ilə kontrast-qarşıqoymanın *"diffuzluğu"*[78].

Küylərdə bitkin musiqi formasının yaranması onun bölmələrinin ardıcıllığı şəklində baş verir. Bu zaman dövrilik prinsipi əsas götürülür. Bunun nəticəsi olaraq, quray küyləri və sıbızğı

[78] Галицкая, С.П. Монодия: проблемы теории / С.П.Галицкая, А.Ю.Плахова. – Москва: Academia, – 2013. – 320 с. – с. 236- 266.

küylərinin əksəriyyəti *variantlı formadadır*. Birincidən sonra gələn hər bir bölmə, 1-ci bölmənin musiqi materialını dəqiq və ya variantlı şəkildə təkrarlayır. Buna görə də bitkin forma daxilində hər bir bölmənin funksiyasını 1-ci bölmənin variantı kimi müəyyən etmək olar. Variantlı forma sıbızğı və kuray küylərində musiqi formasının ümumi *"kanonik modeli*"ni müəyyənləşdirir. İfaçıların bu formanı kanon kimi seçməsi, çox güman ki, onların zaman-məkan anlayışını ənənəvi köçəri cəmiyyətin həyat ritmi və təbiətin dövriliyi ilə bağlı olan eyni hadisələrin dövranı ("dairəvi hərəkəti") kimi qəbul etmələri ilə əlaqədardır.

Küy melodiyalarında məqam tədricən – *"məqam həlqələrinin"* ardıcıl birləşməsi yolu ilə formalaşır. Bir "məqam həlqəsi" musiqi formasının sintaktik quruluş vahidi olan bir melodik formula ilə sinkretik, yəni "diffuz" (qovuşuq) xassə daşıyır. Bu zaman onlar dəqiq və ya variantlı şəkildə təkrarlanır və yeni qarşılıqlı kombinasiyada təqdim olunur. Bir neçə quray küyünün melodiyasında məqamın formalaşmasının digər bir üsulu isə *"məqam həlqələrinin" "modal səs yüksəkliyi transpozisiyasıdır".*

"Məqam həlqələrinin" toplanması *məqam qurumlarının* formalaşmasına gətirib çıxarır.

Məqam qurumu – uzunluğuna görə qısa, daxilən bitkin olan və qonşu *məqam qurumlarından* nisbətən avtonom (müstəqil) olan bir strukturdur. Bir *məqam qurumu* müxtəlif sayda "*məqam həlqələrindən"* təşkil olunur və musiqi formasının bir *qurumuna* uyğun gəlir.

Məqam qurumlarının cəmlənməsi isə son bütöv kimi məqamların yaranmasını təmin edir. Sıbızğı və quray küylərində tam məqamlar iki növlə ifadə olunur. Birinci növə yarımtonsuz məqamlar, ikinci növə isə 1 yarımtonlu və ya 2 yarımtonlu məqamlar aid edilir. Yarımtonsuz məqamın iki növü – birincisi "*g səs sıralı"* pentatonikanın *"kanonik modelindədir"*, ikincisi isə avtentik növlü heksatonikadır ki, sıbızğı və quray küylərində oxşardır. Bununla bərabər, sıbızğı küylərindəki "g səs sıralı" pentatonika, kuray küylərindəki eyni pentatonikadan fərqli olaraq, həm avtentik, həm də plaqal növlərdə təqdim olunur.

Yarımtonlu məqamlarda sıbızğı və quray küylərinin oxşarlıq və fərqliliyi aşağıdakılardan ibarətdir:

- Məqamlar iki növlə – avtentik və plaqal növlərlə ifadə olunur.

- Sıbızğı küylərindəki məqamlar yalnız major yönümlüdür (meyllidir), kuray küylərindəki məqamlar isə həm major, həm də minor yönümlüdür. Bu səbəbdən, sıbızğı və quray küylərində natural major yönümlü avtentik və plaqal növlü məqamlar oxşardır.

Sıbızğı küylərində səs sıraları oktava və subkvarta ilə duodesima həcmində olan plaqal növlü məqamlar, quray küylərində oktava və subkvarta ilə tersdetsima həcmində olan plaqal növlü məqamlarla oxşarlıq təşkil edir. Registr əlamətinə görə sıbızğı və quray küylərində plaqal növlü məqamlar alətlərin aşağı və orta registrlərində inkişaf edir. Orta registr üstünlük təşkil edir. Subtonlar (alt tonlar) isə aşağı registrdə ifa olunur.

Bütün sıbızğı küylərinin məqamları intonasiya quruluşuna görə quray küylərinin məqamlarından fərqlənir. Bununla belə, həm sıbızğı, həm də quray küylərində yarımtonsuz və yarımtonlu məqamlarda beş anqemiton (yarımtonsuz) *melodik formul - "məqam həlqəsi"*mövcuddur. Onlar interval strukturlarına və interval diapazonlarına görə oxşardır.

Məqamın baş dayağı – istinad pərdəsi funksiyasını musiqi formasının bölmələrini və bütövlükdə bütün formanı tamamlayan melodiyanın son səsi yerinə yetirir. Onun səs ucalığı sıbızğı və qurayın köklənmə ucalığına uyğun gəlir. O, ümumi səs sırasının 1-ci pilləsinə təsadüf edir. Məqamın baş dayaq funksiyası və burdon səsi oktava və ya kvintdesima intervallarını yaradır. Baş dayaq funksiyasının burdonla konsonanslığı (uyarlığı) onun dayaq xüsusiyyətini daha da gücləndirir.

Sıbızğı və quray küylərinin məqamlarında yardımçı dayaq funksiyasını 1, 4 və 5-ci pillələr, eləcə də IV subkvarta yerinə yetirir. Onlar sıbızğı və qurayın köklənmə ucalığına və onun konstruktiv obertonlarından birinin (bir qayda olaraq – kvinta və ya duodesima obertonunun) ucalığına müvafiqdir.

Sıbızğı və quray küylərinin məqam quruluşundakı oxşarlıq əlamətlərindən biri də məqam yarımdayağı funksiyasının dəyişkənliyidir (pillələr arasında yerdəyişməsidir). Bunu səs sırasının

əksər pillələri yerinə yetirir. Bu qanunauyğunluq sözügedən küylərin məqam quruluşunun ümumi xüsusiyyəti olan məqam dəyişkənliyini əks etdirir.

Qənaətimizə görə, sıbızğı və quray küylərinin quruluşunda qeyd olunan oxşarlıq əlamətləri qazax və başqırd ənənəvi instrumental musiqi daşıyıcılarının musiqili-poetik və instrumental təfəkküründün yaxınlığından və bənzərliyindən xəbər verir.

Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı əsərləri çap olunmuşdur:

1. Казахско-башкирские флейтовые аэрофоны // Сборник научных трудов «Музыкальное искусство: наука и образование», посвященный 5-летию Казахской национальной академии музыки, – Астана: Акмолинский ЦНТИ, – 2004, – с. 170-174.
2. Исторические основы казахско-башкирской этнокультурной общности // Сборник научных трудов, посвященный 100-летию со дня рождения академика А.К.Жубанова «Музыкальное искусство: наука и образование». Вып. II, – Астана: Акмолинский ЦНТИ, – 2006, – с. 57-65.
3. Единый казахско-башкирский вид музыкального интонирования // Материалы научно-практической конференции V Всероссийского съезда востоковедов «Восток в исторических судьбах народов России», – Уфа: Издательский дом ООО «Вилли Окслер», – 26-27 сентября, – 2006, – с. 42-43.
4. Аспекты казахско-башкирской этнокультурной общности // Материалы международной научно-практической конференции «Музыкальное образование и наука: преемственность традиции и перспективы развития», – Астана: Казахская национальная академия музыки, – 20-22 марта, – 2008, – с. 348-350.
5. Основы казахско-башкирской этнокультурной общности // Материалы международной научно-практической конференции «Международные Акмуллинские чтения»,

посвящённой поэту и просветителю Мифтахетдину Акмулле, – Актобе: МЦ Актюбинский университет им. С.Баишева, – 22-23 мая, – 2008, – с. 37-42.
6. Основы общности традиционной культуры казахов и башкир // – Астана: Научный журнал Международной Тюркской академии «Алтаистика и тюркология», – 2012. № 2 (6), – с. 170-174.
7. Казахский кюй для қыл-қобыза *«Қазан»* и башкирский кюй для курая *«Ҡазанды алған көй»*: черты общности // Материалы международной конференции «Истоки и эволюция литератур и музыки тюркских народов» (Türksoy), – Казань: Институт языка, литературы и искусства им. Г.Ибрагимова АН РТ, – 23-24 сентября, – 2014, – с. 275-284.
8. Comparative analysis of the Kazakh *kuy* for *kyl-kobyz* «Kazan» and the Bashkir *kuy* for *kuray* «Kazandy algan koy»: origin and genre // Türksoy, ICTM43rd World Conference, – Astana: Kazakh National Universiti of Arts, – 16-22 July, – 2015, – p. 38.
9. Игра на казахской *сыбызғы* и башкирском *ҡурае* в русле устного профессионализма: историко-этнографические аспекты // «Qloballaşan dünyada musiqi ənənələri» I Beynelxalq elmi-praktik konfransın materialları, – Azərbaycan Milli Konservatoriyası – Bakı: Ecoprint, – 26-27 oktyabr, – 2017, – s. 101-106.
10. Игра на казахском *шаңкобызе* и башкирском *ҡумызе*: историко-этнографические аспекты // – Bakı: Azərbaycan Milli Konservatoriyasının «Konservatoriya» elmi jurnalı, – 2018. №2 (40), – s. 33-40.
11. Игра на сыбызғы: историко-этнографические аспекты // «Türksoylu xalgların musiqi mədəniyyətinin tədqiqi problemləri» XVIII Beynəlxalq elmi-praktik konfransın materialları, – Bakı: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin mətbəəsi, – 12-15 mart, – 2019, – s. 46-50.

12. Сходные открытые продольные флейты – казахский *сыбызғы* и башкирский *ҡурай* из тростника. Общность способа изготовления // – Bakı: «Konservatoriya», – 2023. №1 (58), – s. 28-39.
13. Сходный жанр казахской и башкирской инструментальной музыки – «кюй-легенда» «*аңыз күй*» для *сыбызғы* и кюй-легенда «*легенда көйө*» для *ҡурая* // – Bakı: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin «ADMİU-nun elmi əsərləri» elmi jurnalı, – 2023. – s. 87-101.
14. Музыкальный склад в кюях для *сыбызғы* и *ҡурая* // – Ташкент: «Eurasian Music Science Journal», – 2023. / 11-12, – с. 54-67.
15. Кюи для сыбызгы и курая: соотношение повествования и музыки // – Bakı: Musiqi dünyası, – 2023. №3(96), – s.9225-9238.
16. Состязания исполнителей на *ҡурае* и *сыбызғы* в традиционной музыкальной культуре башкир и казахов // Материалы Международной научно-практической конференции «Башкирская музыка в контексте мировой музыкальной культуры», – Уфа: Уфимский государственный институт искусств им. З. Исмагилова, – 14-15 декабря, – 2024, – с. 93-98.

Dissertasiyanın müdafiəsi 17 noyabr 2026-cı il tarixində saat 13:00 Azərbaycan Milli Konservatoriyasının nəzdində fəaliyyət göstərən FD 2.55 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri, Yasamal rayonu, Ə.Ələkbərov, 7.

Dissertasiya ilə Azərbaycan Milli Konservatoriyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Konservatoriyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 16 oktyabr 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 21.09.2026

Kağızın formatı: 60x84 1/16

Həcm: 40051 işarə

Tiraj: 30 nüsxə